# Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 954 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nda dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 954 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 10, maddə 559; 2010, N 11, maddə 973) ilə təsdiq edilmiş "Kommersiya (vergi) sirri hesab olunan məlumatları əldə edə bilən vəzifəli şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 7-ci hissədə "Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı və iqtisadi təhlil" sözləri "İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı" sözləri ilə əvəz edilsin.
2. 8-ci hissədə "Xüsusi Rejimli Vergi Xidməti" sözləri "1 saylı Vergilər" sözləri ilə əvəz edilsin.
3. 9-cu hissədə "Vergi Auditi" sözləri "Bakı Vergilər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2016-cı il*